## Abdulla Şaiq - 130



*Folklor mənə xalq dilini, xalq zövqünü, xalq adət və ənənələrini öyrətdi, xalqı və vətəni dərindən sevdirdi.*

**Abdulla Şaiq**

*Abdulla Şaiqin insanpərvərlik təbliğ edən məşhur şeirlərindən biri "Həpimiz bir günəşin zərrəsiyiz" sərlövhəli, bir qədər mahnı ruhunda, oynaq vəzn və müvəffəqiyyətli ifadə vasitələri ilə yazılmış şeirdir. 1910-cu ildə yazılmış bu əsərdə insanlığa səmimi bir xitab vardır. Şaiqin fikrincə, bəşər əslən qardaş yaranmışdır. İnsanlar hamısı bir günəşin şüasından əmələ gəlmiş, bir ananın, təbiətin qoynunda böyümüşlər.*

Mir Cəlal

*Abdulla Şaiq yazıçı, maarif xadimi və insan olaraq bizim ədəbiyyat tarixində nadir şəxsiyyətlərdən biridir. Onun adı indi də işıq saçır, indi də böyük hörmətlə yad edilir. Uşaqlarımız onun əsərlərini indi də maraqla oxuyub fərəhli xəyallara dalırlar.*

*Bu elə belə də davam edəcək. Çünki onun nəcib həyatı bir çıraq kimi həmişə xalq üçün yanmışdır. Bu çırağın işığında uşaqların da, böyüklərin də qəlbində yalnız xeyirxah duyğular, xeyirxah arzular baş qaldırmışdır. Onun yazdıqları, onun şəxsiyyəti insanlara daim yaxşılıq təlqin etmişdir. Çünki o, yazdıqlarında da, həyatda da daim səmimi olmuşdur... Şaiqə sönməz maraq və hörmətin də sirri bundadır.*

İlyas Əfəndiyev

*Şaiq mahir bir sənətkar, mükafatını daima vicdanından almaq istəyən gözəl bir insan, dərs verdiyi tələbələri öz doğma balaları kimi sevən həqiqi bir xalq müəllimidir... O, demokratik Azərbaycan ziyalılarının ən tipik və ən görkəmli nümayəndələrindən biridir.*

Mehdi Hüseyn

*...Şaiq öz biliyi, insani rəftarı, tələbələrə göstərdiyi atalıq qayğısı ilə müəllimlər içərisində xüsusi yer tuturdu. Bu gün belə tələbəlik günlərinin sönməz bir xatirəsi olaraq Şaiqə dərin ehtiram hissləri yaşayır və yaşayacaqdır.*

*Bu unudulmaz insan, böyük sənətkar və hörmətli müəllimin xatirəsi qarşısında diz çöküb təzim edirik.*

Yusif Məmmədəliyev

## ABDULLA ŞAİQİN Mənzil Muzeyi



Axtarışlar, tapıntılar

## Abdulla Şaiq qayğıkeşliyi

Abdulla Şaiq görkəmli romantik şair, yazıçı, dramaturq, tənqidçi və ədəbiyyatşünas, müəllim və pedaqoq olmaqla yanaşı, həm də həssas qəlbli, incə duyğulu, qayğıkeş, çarəsizlərə əl tutmağa çalışan insanpərvər bir vətəndaş kimi də diqqəti cəlb edir. "Açıq söz" qəzetinin 1916-cı ilin 30 may tarixli sayında onun dərc etdirdiyi "Açıq məktub" başlıqlı müraciəti dediklərimizi bir daha təsdiq edir.

Açıq məktubdan məlum olur ki, A.Şaiq qonşuluqda ata və anadan yetim qalıb qoca və kasıb nənəsinin himayəsində yaşayan 7-8 yaşlı Ağabacı adlı bir qızın vərəm xəstəliyindən əziyyət çəkdiyini görüb ona öz kömək əlini uzatmış, uyğun xeyriyyə cəmiyyətinə və həkimlərə müraciət etmişdir. Məlum olmuşdur ki, Ağabacıya Bakının havası düşmür. Ona görə başqa yerə köçməlidir. Yoxsulluq və kimsəsizlik isə onların Salyandakı qohumlarıgilə getmələrinə imkan vermir. Ona görə A.Şaiq "Açıq söz" qəzetinin oxucularına müraciət edib onlara xatırladır ki, ömürlərini yaşamış qoca seyidlərə, dilənçilərə həvəslə hər gün yardım üçün nəzir verərkən savab iş tutduqlarını düşünərkən nəzərə alsınlar ki, hələ ömrünün baharını yaşamaqda olan 7-8 yaşlı yetim və xəstə bir qıza əl tutmaq qat-qat savabdır.

Abdulla Şaiqin 130 illik yubileyi günlərində onun insanpərvərliyinin və qayğıkeşliyinin əyani nümunəsi olan "Açıq məktub"unu "Ədəbiyyat qəzeti"nin oxucularına da təqdim etməyi lazım bildim.

**Alxan BAYRAMOĞLU**
*professor*

## Açıq məktub

Möhtərəm müdir əfəndi!

Mərhəmət naminə şu məktubumun dərcini rica ediyorum. Verxnaya Naqornı küçəsində 5 nömrəli evdə Ağabacı adında 7-8 yaşlı bir yetim qız müdhiş vərəm xəstəliyinə düçar olduğu halda yaşamaqdadır. Möhtərəm doxdur Bəhram bəy Axundov cənablarının təşyiəsilə onu Bakıda vərəm xəstəliyilə mücadilə edən cəmiyyətin xəstəxanasına yerləşdirmək istənilirdi. Lakin daha kiçik ikən anasından ayrılan Ağabacı qədər sevdiyi nənəsindən bir an ayrılmaq istəməyir. Budur ki, doxdur Vəkilov cənablarına müayinə etdirdim. Xəstəliyin məhlək (təhlükəli, qorxulu - **A.B.**) olduğu və Bakının havası ilə saziş etmədiyi məlum oldu. Doxdur xəstənin bir an əvvəl Bakıdan getməsini lazım görüyor. Əfsus ki, gündəlik məaşını işləməklə qazanan qoca nənəsi üçün bu, imkan xaricindədir. Qoca arvadın gedəcəyi yer var: Salyanda bir qızı vardır. Qızın da Salyan ətrafında yaxşı bir bağı var. Ağabacını ora aparmaq mümkündür. Lakin fəqir və səfalət bunun qarşısını alıb kiçikyaşlı Ağabacını xəstəliyin dəhşətli cənginə təslim etdirəmkdədir. Qoca arvad bana müraciət edib kömək istəyir. Bən də üzümü qəlblərində İslam mərhəməti olan "Açıq söz" oxucularına tutub onlardan bu kiçik yetimin halına rəhm etmələrini, onun xəstəliyinə bir çarə olmaqdan ötrü Bakı havasından uzaqlaşdırmalarını diləyirəm. Ümidvaram ki, ömrünü keçirmiş olan qoca seyidə ianə edənlər daha ömrünün baharını görmədən zalım mərəzin öldürücü əlində məhv olmaqda olan ata və anasız kiçik Ağabacıya ianə etməkdən müzayiqə etməyib özlərinin cüzi ianələrilə bunun yaralı ciyərlərinə məlhəm sürtmüş olarlar.

**Abdulla Şaiq**

*"Açıq söz" qəz. 30 may 1916 №.198, səh. 4.*

## Ədibin mənzil muzeyində

Milli ictimai ədəbi və mədəni fikir tariximizdə şair, nasir, dramaturq, müəllim və pedaqoq, teatr xadimi, tənqidçi alim kimi şərəfli yer tutan Abdulla Şaiqin anadan olmasının 130 və onun mənzil muzeyinin 20 illiyi münasibətilə A.Şaiqin ev muzeyində təntənəli yubiley tədbiri keçirilmişdir. Tədbiri giriş sözü ilə muzeyin direktoru, A.Şaiqin nəvəsi, dosent Ülkər xanım Talıbzadə açaraq qonaqları salamladı, onları Şaiq ocağında görməkdən sevinc və fərəh duyduğunu söylədi. O, Mədəniyyət və Turizm Nazirliyinin mədəniyyət siyasəti şöbəsinin müdiri Fikrət Babayevi, digər mənzil muzeylərinin (Ü.Hacıbəyli, C.Məmmədquluzadə, N.Nərimanov və b.) direktorlarının, A.Şaiqin tədqiqatçısı olan bəzi alimlərin adlarını xüsusi qeyd etdi. Sonra Ülkər xanım sözü muzeyin əməkdaşı Arzu Hacıyevaya verdi. A.Hacıyeva özünün "Şaiq ocağı" şerini oxudu. Filologiya elmləri doktoru, professor Alxan Bayramoğlu A.Şaiqin zəngin ədəbi irsinin mövzu dairəsi, obrazlar silsiləsi, ideya istiqaməti, üslubi xüsusiyyətləri və s. haqda danışdı, ədibin əbədiyaşarlığını vurğuladı.

Fikrət Babayev çıxışını A.Şaiqin kuzəyə yazdığı şeirlə tamamladı. Muzeyin elmi əməkdaşı, fil.f.d. Minaxanım Əsədli A.Şaiq mənzil muzeyinin yaranması və fəaliyyət yolundan, burada görülən mədəniyyət işlərindən, A.Şaiqin oğlu akademik Kamal Talıbzadənin bu mədəniyyət ocağının yaradılması və təşkilində çəkdiyi şərəfli zəhmətdən söhbət açdı. Bakıdakı A.Şaiq adına 54 nömrəli orta məktəbin müəllimi Şəhla Günəşin çıxışı, həmin məktəbin şagirdlərinin ifasında "Güllər" kompozisiyası, Avropa liseyinin şagirdlərinin ifasında A.Şaiqin "Nüşabə" pyesindən bir səhnə və Həbib bəy Mahmudbəyov adına Texniki Humanitar liseyin şagirdlərinin ifasında ədibin "Gözəl bahar" pyesindən bir səhnənin ifası da maraqla qarşılandı.

Bakıdakı 189 nömrəli orta məktəbin şagirdi Firdus Kərimli A.Şaiqin öz həyat yoldaşı Şahzadə xanıma yazdığı "Canlı Dərbənd çiçəyi" şerini, sonra isə məktəb yoldaşı Fuadla birgə "Yeni ay doğarkən" şerini xüsusi məharət və coşqunluqla ifa etdi.

Badamdar Mədəniyyət evinin direktoru Fəridə xanım Babayevanın ifasında A.Şaiqin "İntizar qarşısında" şeri dərin təsir bağışladı.

Abdulla Şaiqin "Yad et" şerinə bəstəkar Zeynəb İsmayılzadənin yazdığı mahnını Opera və Balet Teatrının solisti Tural Ağasıyev oxudu, Bakı Musiqi Kollecinin tələbələri A.Şaiqin qəzəlləri üstündə muğam ifa etdilər.

Sonda Abdulla Şaiq adına ev muzeyinin direktoru Ülkər xanım Talıbzadə "Şaiq ocağı" adından tədbir iştirakçılarına təşəkkür etdi...